# Azərbaycan – Çin iqtisadi tərəfdaşlığı: strateji baxışdan əməli addımlara

**Qlobal iqtisadiyyatın mürəkkəb transformasiya mərhələsindən keçdiyi, yeni geoiqtisadi mərkəzlərin və tərəfdaşlıqların formalaşdığı bir dövrdə Azərbaycan – Çin münasibətləri dayanıqlı inkişaf modeli kimi diqqət çəkir. Son illər bu əlaqələr klassik ticarət çərçivəsindən çıxaraq investisiya, sənaye, nəqliyyat-logistika, rəqəmsal texnologiyalar və yaşıl enerji kimi strateji sahələri əhatə edən çoxşaxəli əməkdaşlıq platformasına çevrilib. Dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı etimada əsaslanan dialoqu ikitərəfli münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəldib. Bu kontekstdə Azərbaycan–Çin iqtisadi əməkdaşlığının mövcud vəziyyəti, gələcək perspektivləri, yaşıl enerji dəhlizləri, investisiya mühiti və yeni texnoloji çağırışlar fonunda tərəfdaşlığın inkişaf istiqamətləri xüsusi aktuallıq kəsb edir. Bu və digər mühüm məsələlərlə bağlı Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin iqtisadi və kommersiya məsələləri üzrə müşaviri Yu Honqçi ilə həmsöhbət olduq.**



**– Cənab müşavir, Azərbaycan – Çin ticarət münasibətlərinin mövcud vəziyyətini necə qiymətləndirirsiniz? Dinamik artımın əsas hərəkətverici qüvvələri nələrdir və bu göstəricilər fonunda ikitərəfli iqtisadi əməkdaşlığın gələcək perspektivlərini necə görürsünüz?**

– Son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi diqqəti və rəhbərliyi ilə Çin–Azərbaycan münasibətləri sürətlə inkişaf edib, müxtəlif sahələr üzrə praktiki əməkdaşlıq getdikcə dərinləşib. Prezident İlham Əliyevin 2025-ci ildə Çinə etdiyi iki səfərdən sonra münasibətlərimiz hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib ki, bu da iqtisadi və ticarət əməkdaşlığı üçün möhkəm zəmin yaradır.

Son bir il ərzində Çin–Azərbaycan iqtisadi və ticarət əlaqələri qlobal iqtisadi dirçəlişin zəifliyi və artan proteksionizm kimi çağırışlara baxmayaraq, yüksək dayanıqlıq nümayiş etdirərək, bir çox sahələrdə həm həcmin artımı, həm də keyfiyyətin yaxşılaşması ilə nəzərəçarpacaq nəticələr əldə edib.

**Birincisi,** ticarət dövriyyəmiz yeni zirvələrə yüksəlib və strukturu daha balanslı hala gəlib. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2025-ci ilin yanvar–noyabr aylarında Çin və Azərbaycan arasında ticarət dövriyyəsi 4,21 milyard ABŞ dollarına çatıb ki, bu da əvvəlki illə müqayisədə 24 faiz artım deməkdir. Çin ardıcıl iki ildir ki, Azərbaycanın ən böyük idxal mənbəyi olaraq qalır.

Çin istehsalı olan elektrik nəqliyyat vasitələri, maşın və mexanizmlər, eləcə də elektrik avadanlıqları Azərbaycan bazarında geniş populyarlıq qazanıb. Azərbaycan artıq yeddi ildir ki, ardıcıl şəkildə Çin Beynəlxalq İdxal Sərgisində (CIIE) iştirak edir və Çində uğurla "Ticarət evləri" fəaliyyət göstərir. Bu isə Azərbaycan məhsullarının – şərab, nar şərabı, qurudulmuş meyvələr, mürəbbələr, çay və digər yerli məhsulların tanıdılmasına mühüm töhfə verir.

**İkincisi,** investisiya əməkdaşlığının institusional çərçivəsində irəliləyişlər müşahidə olunur. 2025-ci ilin aprelində keçirilən Azərbaycan–Çin Ticarət və İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10-cu iclası zamanı Birgə İnvestisiya Əməkdaşlığı üzrə İşçi Qrupunun yaradılmasına dair Anlaşma Memorandumu imzalanıb.

Eyni zamanda, yüksək səviyyəli Azərbaycan nümayəndə heyəti 25-ci Çin Beynəlxalq İnvestisiya və Ticarət Sərgisində (CIFIT) iştirak edib. Bu çərçivədə Çin–Azərbaycan İkitərəfli İnvestisiya Təşviqi tədbiri keçirilib və Birgə İnvestisiya Əməkdaşlığı üzrə İşçi Qrupunun ilk iclası baş tutub ki, bu da investisiya əməkdaşlığımızı yeni mərhələyə yüksəldib.

**Üçüncüsü,** əməkdaşlıq layihələri ardıcıl şəkildə irəliləyir. Çin şirkətləri Azərbaycanda günəş və külək enerjisi, neft və qaz qazma işləri, keramik plitə istehsalı, elektrik avtobuslarının yığılması və fiber-optik genişzolaqlı şəbəkələrin qurulması kimi sahələrdə layihələri uğurla həyata keçirirlər. Bu layihələr iqtisadi əməkdaşlığımızı zənginləşdirməklə yanaşı, Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə də mühüm töhfə verir.

2025-ci ildə Çin iqtisadiyyatı qarşılaşdığı çətinliklərə baxmayaraq, innovasiyaya əsaslanan və daha yüksək keyfiyyətli inkişaf istiqamətində irəliləməyə davam edib. Əmtəə ticarətinin ümumi həcmi 45,47 trilyon yuan təşkil edib və bu, illik müqayisədə 3,8 faiz artım deməkdir. ÜDM 5 faiz artaraq ümumi iqtisadi həcmi 140 trilyon yuanı ötüb. Eyni zamanda, xarici investisiyalar üçün tənzimləmələr sadələşdirilib, mənfi siyahı 29 bəndə endirilib və istehsal sektorunda bütün məhdudiyyətlər tamamilə aradan qaldırılıb.

Çin Azərbaycanla birlikdə ticarət və investisiya proseslərinin daha da asanlaşdırılması, bərpa olunan enerji, infrastruktur bağlantıları, istehsal, neft və qaz emalı kimi sahələrdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində çalışmağa hazırdır. Eyni zamanda, Azərbaycanın CIIE, CIFIT və Çin Beynəlxalq Xidmət Ticarəti Sərgisi (CIFTIS) kimi mühüm platformalarda fəal iştirakını təşviq edirik və Çinin iqtisadi inkişafının yaratdığı imkanlardan birgə faydalanmağı məqsədəuyğun hesab edirik.

Hər iki ölkənin liderlərinin strateji rəhbərliyi altında Çin və Azərbaycan arasında ticarət, investisiya, iqtisadi və texniki sahələr üzrə praktiki əməkdaşlığın ardıcıl şəkildə inkişaf edəcəyi və daha böyük nailiyyətlər əldə edəcəyi gözlənilir.

**– Son illərdə Azərbaycan iqtisadiyyatı innovasiya və sənaye yönümlü inkişaf yolundadır. Bu sahədə Çin investisiyaları və texnologiyaları ölkəmizin iqtisadiyyatının şaxələndirilməsində fəal tətbiq edilir. Əməkdaşlığı genişləndirmək üçün hansı sahələr prioritet seçilib?**

– Çin Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi strategiyası çərçivəsində ardıcıl irəliləyişlər əldə etməsini, xüsusilə rəqəmsal transformasiya, yaşıl enerjinin inkişafı və yüksək əlavə dəyər yaradan istehsala güclü diqqət yetirərək innovasiyaya əsaslanan iqtisadiyyata doğru inamla irəliləməsini məmnunluqla qeyd edir. 2025-ci ilin yanvar – noyabr aylarında Azərbaycanın qeyri-neft və qaz sektoru ÜDM-in 70 faizindən çoxunu təşkil edib, ixracın həcmi isə 3,3 milyard ABŞ dollarına çataraq illik müqayisədə 7,3 faiz artıb. Bu sektor iqtisadi artımın əsas hərəkətverici qüvvələrindən birinə çevrilərək dayanıqlı inkişaf baxımından mühüm üstünlüklər yaradır və ölkələrimiz arasında praktiki əməkdaşlıq üçün yeni imkanlar açır.

Çin və Azərbaycan arasında əməkdaşlıq artıq real və ölçülə bilən nəticələr verir. Son illərdə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü Azərbaycanın "İpək Yolunun Dirçəldilməsi" milli inkişaf strategiyası, eləcə də 2030-cu ilədək Sosial-İqtisadi İnkişaf Strategiyası ilə sıx şəkildə uzlaşdırılıb. Çin şirkətləri Azərbaycanda günəş enerjisi layihələrinin, elektrik avtobusları istehsal xətlərinin, keramik plitə zavodlarının və karton istehsalı müəssisələrinin tikintisi və investisiyası ilə məşğul olublar. Eyni zamanda, günəş enerjisi, dənizdə külək enerjisi, enerji saxlama sistemləri və günəş panellərinin (elementlərinin) istehsalı üzrə yeni layihələr planlaşdırılır. Nəticə etibarilə, 2025-ci ilin ilk doqquz ayında Çinin Azərbaycana birbaşa investisiyaları illik müqayisədə 67,9 faiz artıb.

Bu layihələr Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi strategiyası ilə tam uyğunluq təşkil edir və qabaqcıl istehsal, tikinti materialları, bərpa olunan enerji kimi əsas sahələri əhatə edir. Onlar çoxsaylı yeni iş yerlərinin yaradılmasına, yerli kadr potensialının gücləndirilməsinə, eyni zamanda müxtəlif sənaye sahələri üzrə birgə inkişafın təşviqinə xidmət edir. Beləliklə, iqtisadi, sosial və ekoloji faydalar paralel şəkildə formalaşır ki, bu yanaşma Azərbaycanın güclü və çoxşaxəli iqtisadi mənzərəsinin qurulmasına mühüm töhfə verir.

Gələcəyə baxdıqda, Çin və Azərbaycan arasında praktiki əməkdaşlıq üçün potensial son dərəcə genişdir. Çin tərəfi dövlət başçıları səviyyəsində əldə olunmuş əsas razılaşmaların tam icrasına, "Bir kəmər, bir yol" çərçivəsində əməkdaşlığın keyfiyyətinin artırılmasına, ticarət və investisiya prosedurlarının sadələşdirilməsinə, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun səmərəliliyinin yüksəldilməsinə, həmçinin infrastruktur, kənd təsərrüfatı və energetika kimi ənənəvi sahələrdə əməkdaşlığın genişləndirilməsinə hazırdır. Bununla yanaşı, rəqəmsal iqtisadiyyat, yaşıl inkişaf və süni intellekt sahələrində yeni artım imkanlarının araşdırılmasına böyük maraq göstəririk. Birgə layihələr vasitəsilə əməkdaşlıq potensialımızı daha da reallaşdıra və xalqlarımıza real faydalar gətirə bilərik.

**– "Yaşıl enerji dəhlizi" konsepsiyası çərçivəsində hansı birgə layihələrin həyata keçirilməsi planlaşdırılır? Bu təşəbbüslər Azərbaycanda yaşıl enerji keçidinə hansı töhfə verəcək?**

– Son illərdə Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsini və iqlim dayanıqlığının gücləndirilməsini prioritet istiqamət kimi müəyyənləşdirərək ətraf mühitin mühafizəsi və yaşıl artımı "Azərbaycan 2030" Strategiyasına inteqrasiya edib. Bu yanaşma həm qlobal yaşıl keçid tendensiyalarını, həm də Azərbaycanın yüksək keyfiyyətli inkişaf hədəflərini əks etdirir. Bərpa olunan və ənənəvi enerji mənbələri arasında balanslaşdırılmış siyasətin təşviqi nəticəsində Azərbaycan enerji sistemlərini strateji şəkildə modernləşdirir və ümumi quraşdırılmış güc üzrə 1 gigavatlıq tarixi göstəriciyə nail olub ki, bu da ölkənin enerji təhlükəsizliyini etibarlı şəkildə möhkəmləndirir.

Eyni zamanda, Azərbaycan aşağıkarbonlu keçid istiqamətində ardıcıl addımlar atıb, COP29 konfransına uğurla ev sahibliyi edib və zəngin bərpa olunan enerji potensialından istifadə etməklə yeni enerji sahələrinin inkişafını sürətləndirib. 2025-ci ilə qədər külək və günəş enerjisi istehsalı 770 milyon kilovat-saata çataraq enerji balansında "yaşıl pay"ın əhəmiyyətli dərəcədə artmasına şərait yaradıb.

Çin Azərbaycanın yaşıl enerji keçidini qətiyyətlə dəstəkləyir, elektrik şəbəkələrinin planlaşdırılmasında iştirak edir, günəş və külək enerjisi layihələrinin icrasına töhfə verir, yüksək səmərəli təmiz texnologiyaların tədarükünü həyata keçirir və elektrik avtobusları təşəbbüslərini təşviq edir. 2025-ci ilin iyun ayında Azərbaycanın quraşdırılmış gücünə görə ən iri elektrik stansiyası olan, Çin şirkətlərinin tədarükdə iştirak etdiyi Mingəçevirdə yerləşən "8 Noyabr" Elektrik Stansiyası rəsmi olaraq istismara verilib.

Açılış mərasimində Prezident İlham Əliyev iştirak edərək Çin şirkətlərinin töhfəsini yüksək qiymətləndirib və bu layihəni beynəlxalq əməkdaşlığın parlaq nümunəsi kimi dəyərləndirib. Çin şirkətləri Qafqazın ən böyük külək enerjisi layihəsi olan 240 MVt gücündə Xızı–Abşeron Külək Elektrik Stansiyasının tikintisini uğurla başa çatdırıblar. Bununla yanaşı, onlar Azərbaycanın ən iri günəş enerjisi layihələri — 315 MVt gücündə Bankə və 445 MVt gücündə Biləsuvar fotoelektrik layihələri, eləcə də ölkədə açıq tender yolu ilə həyata keçirilən ilk bərpa olunan enerji layihəsi olan 100 MVt-lıq Qobustan Günəş Elektrik Stansiyası üzərində işləri davam etdirirlər. Bu layihələr plan üzrə irəliləyir və dayanıqlı inkişafla yanaşı, karbon emissiyalarının azaldılması hədəflərinə mühüm töhfə verir.

Gələcək perspektivdə Çin yaşıl inkişaf, enerji səmərəliliyi, emissiyaların azaldılması, karbon pik nöqtəsinə çatma və karbon neytrallığı sahələrində Azərbaycanla mübadilə və əməkdaşlığın daha da gücləndirməyə hazırdır. Birgə şəkildə Xəzər–Qara dəniz–Avropa, Azərbaycan–Türkiyə–Avropa və Mərkəzi Asiya–Azərbaycan–Avropa marşrutları kimi yaşıl enerji dəhlizlərinin formalaşdırılması və inkişafında fəal iştirak imkanlarını araşdıracağıq. Bu əməkdaşlıq Azərbaycanın Avrasiya məkanını birləşdirən yaşıl enerji mərkəzi kimi mövqeyinin möhkəmlənməsinə, həm bu marşrutlar boyunca, həm də daha geniş regionda inkişaf üçün yeni dinamikanın yaranmasına xidmət edəcək.

*Söhbəti qələmə aldı:*
*Nurlan ABDALOV*
*XQ*